# Qadınların ictimai siyasi fəallığının artırılması müstəqil dövlətimizin nailiyyətlərindəndir

(Əvvəli 3-cü səhifədə).

Azərbaycan Respublikası qadın hüquqlarının qorunması ilə əlaqədar demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə qoşuldu. Ulu öndərin 1998-ci il tarixli Fərmanı ilə respublikamızda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı.

2006-cı ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı Fərmanla Həmin Komitənin əsasında Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Bu komitə Azərbaycanda ailə və uşaq məsələləri ilə yanaşı gender siyasətini həyata keçirən, nazirliklərlə eyni statusda olan yeganə hökumət orqanıdır. Bundan başqa 200-dən artıq qeyri-hökumət təşkilatı da ailə qadın və uşaq problemləri yönümlüdür. Ana və uşaqların sağlamlığı məsələsi dövlətimiz qarşısında duran əsas vəzifələrdəndir. Bu məqsədlə 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə «Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014—2020-ci illər) Dövlət Proqramı» təsdiq edilmişdir.

Azərbaycan əhalisinin 50,2 faizini qadınlar təşkil edir. Onlar müxtəlif sferalarda müvəffəqiyyətlə çalışırlar. Respublikada rayon (şəhər) icra hakimiyyəti başçılarının qadın müavinlərinin sayı 78-ə, qadın hakimlərin sayı 65-ə çatıb. Ədliyyə orqanlarında işləyənlərin 1153 nəfəri, rəhbər vəzifələrdə çalışanların 84 nəfəri, notariuslardan 40 nəfəri, dövlət qulluğunda çalışanların 28 faizi, bələdiyyələrdə isə 34 faizi qadınlardır.

Qeyd etmək lazımdır ki, Azərbaycan qadınlarının ictimai həyatda rolu bu gün Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoş məramlı səfiri, Milli Məclisin deputatı Mehriban Xanım Əliyevanın timsalında daha qabarıq şəkildə özünü biruzə verir. Mehriban xanımın təhsilimizin, səhiyyəmizin, mədəniyyətimizin inkişafı naminə yorulmaz fəaliyyəti hər bir Azərbaycan qadını üçün nümunədir.

**Qüdrət SƏMƏDOV.**

# Heydər Əliyev və kitabxanaların inkişaf yolu

(Əvvəli 2-ci səhifədə).

Hazırda kitabxana işinə dair Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar, Dövlət Proqramı respublikamızın çoxsaylı kitabxanaçılar ordusu tərəfindən uğurla yerinə yetirilməkdədir. Bu sahədə bizim kitabxanamızın da rolu böyükdür.

Kitabxanamız 1930-cu ildə yaranmış, 1977-ci ildən mərkəzləşdirilərək Qəbələ Rayon Mərkəzi Kitabxana Sistemi (MKS) kimi fəaliyyətə başlamışdır.

“Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının 2.1/5 bəndinin icrasını təmin etmək məqsədi ilə Qəbələ rayon İcra Hakimiyyəti başçısının 01 iyun 2009-cu il 77 saylı sərəncamı ilə rayonda olan 68 kitabxana filialının sayı azaldılmış və 26 kitabxana filialında birləşdirilmişdir.

Hazırda Qəbələ MKS-nın tərkibində 1 mərkəzi, 3 şəhər və 23 qəsəbə, kənd kitabxana filialı fəaliyyət göstərir.

Kitabxanaçılarımız dövlətin kitabxana işinə göstərdiyi böyük qayğıya cavab olaraq kitabxana-informasiya fəaliyyətini daha da genişləndirir, oxuculara xidmət işinin keyfiyyətcə yaxşılaşdırılmasına xüsusi səy göstərirlər.

**Günel QARAYEVA,**
**mərkəzi kitabxananın işçisi.**

## Yeni dərs ili qarşısında

# Hazırlıq işləri sürətləndirilir

Yeni dərs ilinə hazırlıq işləri gündən-günə sürətləndirilir. Dövlətin təhsil sahəsinə göstərdiyi diqqət və qayğının bariz nümunəsi olaraq rayonumuzda son illər yeni məktəb binalarının və əlavə sinif otaqlarının tikintisi, mövcud məktəb binalarının əsaslı təmiri və yenidən qurulması geniş vüsət almışdır. Ümumiyyətlə son 10 il ərzində Qəbələdə 25 yeni məktəb binası və əlavə korpuslar inşa edilərək müəllim və şagirdlərin ixtiyarına verilmişdir. Bunlardan çoxu Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində reallaşdırılmışdır. Bundan əlavə rayonunun əksər məktəbləri müasir tələbata cavab verən tədris avadanlıqları, kommunikasiya-informasiya vasitələri ilə tam təchiz edilmiş, müəllimlərə qayğı və diqqət yaxşılaşdırılmışdır. Məhz buna görə son illər məktəblərdə işgüzar şərait yaradıldığına, hər bir müəllimin işə münasibəti köklü şəkildə yaxşılaşdırdığına görə ümümtəhsil müəssisələrdə dərsdən yayınma hallarının qarşısı alınmış, müəllim, şagird münasibətləri müsbət mənada dəyişmiş, tədrisin keyfiyyəti yüksəlmişdir. Sadaladığımız müsbət dəyişikliklərin ön cərgəsində şəhid Nicat Apayevin adına şəhər 4 saylı tam orta məktəb gedir. Bu məktəbin yaranma tarixi çox uzaq keçmişə bağlı deyil. Cəmi 51 il bundan əvvəl internat məktəbi kimi fəaliyyətə başlamışdır. 1993-cü ildən isə məktəbin statusu dəyişdirilərək tam orta məktəbə çevrilmişdir. Bu 51 il ərzində məktəbin keçdiyi yolları və təlim-tərbiyədə qazandığı nailiyyətləri təhlil etdikdə, onun haqqında adamda xoş təsəvvür yaranır.

Şəhər 4 saylı tam orta məktəb təhsilin-tədrisin keyfiyyəti ilə rayonda, eyni zamanda respublikanın ən nüfuzlu məktəblərindən biridir. Sözsüz ki, hər bir uğurun başlanğıcı məktəbdə davamlı şəkildə yaradılan nizam-intizamdan, məktəbin pedaqoji kollektivinin təcrübəsindən, işgüzarlığından çox asılıdır. 2014-2015-ci dərs ilində bu qabaqcıl təhsil ocağında 950 şagird təhsilə cəlb edilmiş, onların təlim-tərbiyəsi ilə 140 nəfərə yaxın müəllim məşğul olmuşdur. Son 4 ildir ki, böyük şagird kontingentinə və savadlı, dünyagörüşü zəngin olan müəllim kollektivinə Qəşəngi Musayeva rəhbərlik edir. Təcrübəli direktor kimi tanınan Qəşəngi müəllim müəllimlər arasında ayrı fərq qoymur, hamısına doğma münasibət bəsləyir, qayğı göstərir. Lakin müəllimlərə qarşı tələbkarlığı da unutmur. Elə buna görə də o, bu məktəbə direktor təyin ediləndən bəri təhsil ocağında təlim-tərbiyə göstəriciləri yüksəlmiş, tədrisin keyfiyyəti yaxşılaşmış, məktəbdə sağlam mənəvi-psixoloji mühit yaradılmış, məktəbdən yayınma hallarının qarşısı alınmışdır.

Bir məsələni xüsusi ilə qeyd etmək lazımdır ki, məktəbdə valideynlərlə çıx əlaqə yaradılmasına üstünlük verilir. Bu da təlim-tərbiyənin səmərəliliyinin yüksəldilməsinə təkan verir. Tarixi günlərlə və bayramlarla əlaqədar keçirilən tədbirlərdə valdideynlərin və ictimaiyyətin nümayəndələrinin iştirakı təmin edilir.

Ən yaxşı haldır ki, hər il təhsillə bağlı rayon və respukblika səviyyəsində keçirilən idman və bilik yarışlarında, müsabiqələrdə, ali məktəblərə qəbulda məktəbin adı yaxşılar sırasında çəkilir. Ötən dərs ilində Azərbaycan Resprublikasının FNH-i tərəfindən məktəblilər arasında keçirilən «Fövqəladə hallar uşaqların gözü ilə» ümumrespublika yaradıcılıq müsabiqəsində məktəb birinci yeri tutmuşdur.

2014—2015-ci dərs ilində məktəbi bitirən 75 nəfər məzundan 40 nəfəri respublikanın ən nüfuzlu ali məktəblərinə vəsiqə alıb. Bunlardan 5 nəfər test üsulu ilə 650—670 arasında bal toplamışdır. Dərs ilinin yekununa görə bu məktəbdə qiymət faizi 100 faiz, keyfiyyət faizi isə 70 faiz olmuşdur.

Məktəbin yaxşı ənənələrindən biri də odur ki, burada səmimi, işgüzar müəllim kollektivi var. Onların təşəbbüsləri, köhnə iş metodlarından cəsarətlə uzaqlaşmalapı, şagirdlərə həsas və qayğı ilə yanaşmaları təlim-tərbiyənin keyfiyyət göstəricilərində səmərə verir. Belə müəllimlərdən Mətanət Rəfiyevanın, İntizar Həlimovanın, Gülşən İsayevanın, Məlahət Mirzəmmədovanın, Mehriban Quliyevanın və başqalarının adları iftixarla çəkilir. Bu, öz peşəsinə ürəkdən bağlı müəllimlər istər dərsdə, istərsə də dərsdən kənar məşğələlərdə milli-mənəvi tərbiyənin, məktəblilərin vətəndaşlıq duyğularının istiqamətləndirilməsinə yönəldilən rəngarəng tədbirlər həyata keçirirlər.

Xatırladaq ki, Qəbələnin ən iri təhsil ocağı olan 4 saylı şəhər tam orta məktəbin uğurları dövlətimmizin başçısı cənab İlham Əliyevin 6 avqust 2013-cü il tarixdə imzaladığı sərəncamla «Ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsinin qalibi oldu və pul mükafatı ilə mükafatlandırıldı. Bu böyük qayğı və diqqət məktəbin pedaqoji kollektivi tərəfildən minnətdarlıqla qarşılanmış və onlar işə daha böyük həvəslə yanaşmışlar. Məktəbdə yeni dərs ilinə hər sahədə ciddi hazırlıq artıq başa çatmaq üzrədir.

Məktəbin direktoru Qəşəngi Musayeva deyir ki, biz yeni dərs ilinə hazırlığa hələ ötən tədris ilinin ortalarından başlamışıq. İlk növbədə, əlbəttə, birinci siniflərin komplektləşdirilsməsi ilə maraqlanırıq. Hamının təhsilə cəlb edilməsi, məktəbdən yayınma hallarının qarşısının alınması üçün yerlərdə məlumat-izahat işləri aparılır. Biz qeyri-rəsmi də olsa məktəbimizin müvafiq ərazisi üzrə birinci siniflərə gələcək uşaqların təxmini siyahılarını hazırlamışıq. İlkin hesablamalara görə cari ildə məktəb üzrə 950 şagird təhsilə cəlb olunacaq. Qəşəngi Musayeva onu da qeyd etdi ki, burada yeni dərs ilinə hazırlıq işləriylə bağlı həyata keçirilən ən mühüm tədbirlərdən biri də məktəblilərin yeni dərsliklərlə təminatı məsələsidir. Hər il olduğu kimi, cari ildə də Təhsil Nazirliyinin xətti ilə I—XI sinif şagirdlərinin yeni dərsliklərlə təmin olunması nəzərdə tutulmuşdu. Məktəbdə təmir-bərpa işlərinin aparılması və sinif otaqlarının təzə oturacaqlarla, yazı lövhələri ilə təmin edilməsi başa catdırılır. Müəllimlər üçün stol və stulların verilməsi də planlaşdırılmışdır.

Bir sözlə, yeni dərs ilində 4 saylı tam orta məktəbin müəllim və şagirdləri təzə təmir edilmiş sinif otaqlarına, tədris korpuslarına böyük fərəhlə daxil olacaqlar. Bütün bunlar şagirdlərin fənləri qavrama səviyyəsinə, onların həvəslə oxumalarına və təhsilin keyfiyyətinə öz musbət təsirini göstərəcəkdir.

**Aslan CƏLİLOV.**